Building a better working world

İyun 2024-cü il

# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi



# Hüquqi yeniliklər

Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- COP29 ilə əlaqədar qəbul edilmiş yeni vergi azadolmaları
- COP29-un təşkili ilə əlaqədar idxal olunan mallar üçün yeni gömrük rüsumu azadolmaları
- BEPS Konvensiyası ratifikasiya edilmişdir
- Korporativ idarəetmə üzrə yeni dövlət standartının tətbiqi
- Yüksək İxtisaslı Miqrant Proqramının hazırlanması planlaşdırılır

## COP29 ilə əlaqədar qəbul edilmiş yeni vergi azadolmaları

*21 may 2024-cü il tarixində “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (“Dəyişikliklər”) qəbul edilib.*

Dəyişikliklərə əsasən, Azərbaycanda COP29 ilə əlaqədar 2024-cü il martın 1-dən 9 ay ərzində aşağıdakı gəlir növləri üzrə yeni vergi güzəştləri tətbiq edilib:

- Gəlir Vergisi – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (“ETSN”) verdiyi sənəd əsasında qeyri-rezident fiziki şəxslərin malların, işlərin və xidmətlərin göstərilməsindən əldə etdiyi gəlirlər;
- Mənfəət Vergisi – qeyri-rezident hüquqi şəxsə müəlliflik hüquqlarından istifadəyə və ya qeyri-maddi aktivlər üzrə istifadə hüquqlarının verilməsinə görə onlar arasında bağlanmış müqavilə əsasında ETSN tərəfindən ödənilən royalti gəliri;
- Mənfəət Vergisi – qeyri-rezident hüquqi şəxslərin ETSN tərəfindən verilmiş sənəd əsasında işlərin və xidmətlərin göstərilməsindən əldə etdikləri gəlirlər;
- Əlavə Dəyər Vergisi – qeyri-rezidentlər tərəfindən ETSN ilə bağlanmış müqavilə əsasında işlərin görülməsi və xidmətlərin göstərilməsi, habelə ETSN tərəfindən verilmiş sənəd əsasında malların idxalı.

Dəyişikliklər 6 iyun 2024-cü il tarixində qüvvəyə minmişdir.

## COP29-un təşkili ilə əlaqədar idxal olunan mallar üçün yeni gömrük rüsumu azadolmaları

*6 iyun 2024-cü il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında Nazirlər Kabinetinin Qərarında dəyişiklik edilməsi barədə" Qərar ("**Dəyişikliklər**") qəbul edib.*

Dəyişikliklərə görə, COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən verilən sənəd əsasında COP29 beynəlxalq tədbiri ilə əlaqədar Azərbaycana gətirilən mallar idxal gömrük rüsumlarından azaddır.

Dəyişikliklər 6 iyun 2024-cü il tarixində qüvvəyə minmişdir.

## BEPS Konvensiyası ratifikasiya edilmişdir

*31 may 2024-cü il tarixində "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiyanın ("BEPS Konvensiyası") təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu ("Qanun") qəbul edilmişdir.*

Qanun 24 noyabr 2016-cı il tarixində Parisdə imzalanmış BEPS Konvensiyasının, o cümlədən Azərbaycan tərəfindən edilən qeyd-şərt və bildirişlərin təsdiqini nəzərdə tutur.

Qanun 24 iyun 2024-cü il tarixində qüvvəyə minmişdir.

## Korporativ idarəetmə üzrə yeni dövlət standartının tətbiqi

*30 may 2024-cü il tarixində "Korporativ idarəetmə. Rəhbəredici göstərişlər" dövlət standartı ("Dövlət Standartı") Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti yanında Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən qəbul edilmişdir.*

Dövlət Standartı idarəetmə orqanlarında vəzifələrin səmərəli, diqqətli və effektiv icrasını təmin etməyə yönəlmiş idarəetmə prinsiplərini özündə əks etdirir.

Dövlət Standartının tətbiqi müəssisə və təşkilatlarda digərləri ilə yanaşı, aşağıdakıları təmin edəcəkdir:

- Maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi;
- Risklərin effektiv idarə edilməsi;
- Etibarlı daxili nəzarət sisteminin yaradılması.

## Yüksək İxtisaslı Miqrant Proqramının hazırlanması planlaşdırılır

*6 iyun 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti "Yüksək ixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında işə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam ("Sərəncam") imzalayıb.*

Sərəncamın imzalanması ilə yüksək ixtisaslı əcnəbi və vətəndaşlığı olmayan mütəxəssislərin Azərbaycanda haqqı ödənilən işə cəlb edilməsi məqsədilə Yüksək İxtisaslı Miqrant Proqramının ("Proqram") yaradılması nəzərdə tutulur.

Proqram ərizələri təsdiqlənmiş yüksək ixtisaslı miqrantlara və onların himayəsində olan şəxslərə müxtəlif imtiyazlar və güzəştlər təklif etməyi nəzərdə tutur. Bunlara aşağıdakılarla bağlı sadələşdirilmələr daxildir:

- Ölkədə yaşamaq və ya ödənişli əmək fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin alınması məqsədilə tələb olunan sənədlər;
- İcazələrin müddəti;
- İş icazəsi tələblərindən azad olunma;
- Ərizəyə baxılma müddətinin qısaldılması.

Bundan başqa, Proqramda yüksək ixtisaslı miqrantların müraciətlərinə baxılması və onların sorğularının cavablandırılması üçün "bir pəncərə" prinsipi əsasında fəaliyyət göstərən yeni portalın yaradılması nəzərdə tutulur.

Sərəncam 6 iyun 2024-cü il tarixində qüvvəyə minmişdir.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel:+994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



Məmməd Balacanov
Baş Menecer, Hüquq xidmətinin rəhbəri,
Vergi və hüquq xidmətləri
Tel:+994 (12) 490 7020
mammad.balajanov@az.ey.com

EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilər, əməkdaşlar və bütövlükdə cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılmasına və kapital bazarlarına inamın artırılmasına töhfə verməklə daha yaxşı iş dünyasının qurulmasına çalışır.

EY şirkətinin çoxprofilli komandaları dünyanın 150-dən çox ölkəsində təmsil olunur. İnformasiya və texnologiyalardan istifadə edərək əməkdaşlarımız məlumatların doğruluğunu təsdiq etməklə etimadı təmin edir və müştərilərə fəaliyyətlərini uğurla inkişaf və transformasiya etdirməyə kömək edirlər.

EY şirkətinin audit, konsaltinq, hüquq, strategiya, vergi və sövdələşmələr sahəsində mütəxəssisləri bu gün dünyamızın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

EY, Qafqaz və Mərkəzi Asiyadan olan şirkətlərlə əməkdaşlıq edir və onlara biznes məqsədlərinə çatmağa köməklik göstərir. Almatı, Bakı, Bişkek, Nur-Sultan, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 8 ofisimizdə 1300-dən çox mütəxəssis çalışır.

© 2024-cü il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr diqqət ilə hazırlanmışdır, lakin ona daxil edilmiş məlumat zəruri olaraq qısa xülasə şəklində təqdim edilir və buna görə də ümumi xarakter daşıyır və ətraflı araşdırmanın və ya peşəkar rəyin əvəzi kimi nəzərdə tutulmamışdır. "EY" hazırkı nəşrə daxil edilmiş məlumata əsaslanaraq hərəkət etmiş və ya etməmiş hər hansı şəxsə dəyən ziyana görə heç bir məsuliyyəti üzərinə götürmür. Hər hansı xüsusi hal ilə bağlı olaraq istinad müvafiq məsləhətçiyə edilməlidir.

ey.com/az